# AD GÜNÜ



**R.İbrahimbəyovun "Ad günü" və "Ezamiyyətdə" adlı hekayələri əsasında yazdığı "Ad günü" ssenarisində (1977) hər iki əsər tənhalıq problemini əks etdirən mövzuya tabe etdirilir. "Ezamiyyətdə" hekayəsinin qəhrəmanı neftçi alim Mərdanov Mustafa ssenaridə coğrafiya müəllimi kimi təqdim olunur və ədəbi materialdakı kimi Bakıdan Moskvaya deyil, Şəkidən Bakıya-konfransa gələrək dostunun evində qalır.**

**Hekayədə uşaqlığı müharibə illərinə düşən Əlinin xatirələrində bıçaq tiyəsindəki çörək qırıntılarının dadı, həyət uşaqları ilə birgə yedikləri yağış tırtıllarından təkcə onun zəhərlənməsi, sovet qoşunlarının şəhərləri almasını bildirən xəritədəki qırmızı bayraqcıqlar və hər dəfə bir şəhər geri alındıqca Riva xalanın ona bir qaşıq mürəbbə verməsi göstərilsə də, ssenaridəki hadisələr ümumi ideyaya tabe etdirilir.**

Bu ssenari əsasında kinorejissor Rasim Ocaqovun quruluş verdiyi "Ad günü" (1977) filmində avtobusla Şəkidən Bakıya üç günlük konfransa gələn kənd müəllimi Mustafanın mehmanxanada deyil, dostu Nazimgildə (Fuad Poladov) qalması, şəhərlə tanış olması "Ezamiyyət" hekayəsinin motivini önə çəkir. Aralarında Mustafanın (Hacı İsmayılov) da olduğu müəllimlərin baş çəkdikləri çoxmərtəbəli binanın tikintisində çalışan rəngsaz Əlinin işdən icazə alaraq evə getməsi isə "Ad günü" nin işdən icazə alaraq evə getməsi isə "Ad günü" hekayəsini qabardır. Dostlarını 5 yaşlı oğlunun ad gününə yığan Əlinin (David Uplisaşvili) bazarlıq etməsi, içkilərin alınması və balıq üçün qırx km məsafə qət edib Nardarana getməsi ad günü mərasimini əsas hadisəyə çevirir. Evdə ad gününün keçirilməsini müzakirə edən Əliyə arvadı Rənanın (Şükufə Yusifova) uşağın paltosunun olmadığını dilə gətirməsinə baxmayaraq Babanın (Hüseynağa Sadıqov) məclisin strateji məsələ olduğunu söylə-

yərək bu işə razılıq verməsi hadisəyə təkan verir. Vaxtilə toya gəlməyən dostların indi də ad gününü saymayacaqları ehtimalı Əlinin möhtac olduğu ünsiyyət problemini önə çəkir.

Poçtda teleqram yazan Mustafanın üstünə mürəkkəb dağıtdığı qatar bələdçisi Fəridə (Şəfiqə Məmmədova) ilə tanış olması, ertəsi gün axşam saat yeddiyə Qız Qalasının yanında görüş alması bu personajı da ünsiyyət problemi ilə bağlayır. Nardaranda balıq tapmadığını özünə dərd edən Əlinin ad gününün vacibliyini dərk edən Ananın (Sədayə Mustafayeva) timsalında özünə həmfikir tapması mövzu istiqamətini nizamlayır. Köhnə həyətə gələrək uşaqlıq dostlarını ad gününə dəvət edən Əlinin gecə yataqda da balıq tapmamağı dərd etməsi problemi qabardır. Əlinin bazarlıq edib ağır zənbilləri evə daşıması ilə paralel montajda Mustafanın konfrans bitəndən sonra Nazimlə kef edəcəyini xatırlaması və nəhayət Əlinin balıq tapması hadisələri tələsdirir.

Qız Qalasının yanında görüşə gələrək vacib işi olduğunu bildirən bələdçi Fəridə və kimə isə çatdırılacaq hansısa əmanəti götürmək üçün Badamdara gedən Mustafa ilə paralel montajda bazarlıqlarını daşımaqda ifrata varan Əlinin hazır süfrəni məmnuniyyətlə nəzərdən keçirməsi, dizlərinin əsdiyini bildirərək qonşunun oğlu Vaqifin qarmonunu aparmasına əsəbiləşməsi, narşərab, manqal dalınca qaçması atraksionların montajını yaradır.

Selləmə yağışın altında çiynindəki ağır yükdən-əmanətdən beli əyilən Mustafanın Fəridənin evində öncədən alıb özüylə gətirdiyi şərabı süfrəyə qoyması ilə paralel montajda hər iki məclisdəki sağlıqlar epizodların əlaqəsini nizamlayır. Və bu müxtəlif məclislərdə Mustafanın və Əlinin içib sərxoş olmaları əlaqənin dinamizmini artırır. Fəridənin iki dəfə ərə getsə də, ailədə bəxti gətirmədiyini, Mustafanın bir dəli qızdan başqa kimsənin ona vurulmadığını bildirmələri ilə paralel, ad günündəki şıdırğı rəqsin fonunda təbrikə gələn qonşunun Əlinin yatdığını bilərək heyrətlənib geriyə qayıtması mühitin portretini yaradır.

Yeri mətbəxdə salınan Mustafanın, qapının zəngini çalan Fəridənin məktəbli qardaşının yağışlı havada çöldə qalmasına dözməyərək qadının təklifi ilə geyinib küçəyə çıxması, telefon avtomatdan dostu Nazimə zəng edərək Şəkiyə qayıt-



maq istədiyini bildirməsi tənhalığın audiovizual həllini verir. Və yuxudan ayılaraq boş otaqda kimsəsiz süfrəni qəmli-qəmli nəzərdən keçirən, qonaqlar üçün qarmon çalmadığına heyfsilənən Əlinin gecəyarısı, yağışlı küçədən keçən Mustafanı evə çağırması iki tənha kəsi birləşdirir. Kefi kökəlmiş Əlinin qarmonu "Mahur" üstündə dilləndirərək Mustafanı da "Pəncərədən daş gəlir" xalq mahnısını oxumağa təhrik etməsi, rəqs çalmağa keçəndə stulu ona tərəf itələyib him-cimlə ritm tutmağı işarə etməsi epizodun emosional təsir gücünü artırır.

**Beləliklə nəhayət ki, baş tutan ad günündə Əlinin qarmonda çaldığı rəqsə Mustafanın ritm tutması, tənhalıqdan əzab çəkən bu iki nəfəri xoşbəxt edərək kaktarsis yaratmaqla uğurlu finalı canlandırır.**

● **Aydın ƏRŞADOĞLU,**
***filologiya elmləri doktoru***